# Beynəlxalq müşahidəçilərin rəyi reallığı əks etdirir

## Azərbaycanın seçki təcrübəsi bir çox ölkələr üçün nümunə ola bilər

**Ölkəmizdə keçirilən prezident seçkiləri və beynəlxalq təşkilatların, müşahidəçilərin seçki prosesi ilə bağlı rəyləri bu gün də müzakirə mövzusudur. Siyasi ekspertlər hesab edirlər ki, Azərbaycan həmişə olduğu kimi, bu dəfə də seçkiyə beynəlxalq müşahidəçiləri dəvət edib və onlar həm uzunmüddətli, həm də qısamüddətli müşahidələr vasitəsilə prezident seçkilərinə qiymət veriblər.**



Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, xarici müşahidəçilərin ümumi qənaəti ölkəmizdə seçki prosesinin yaxşı təşkil edildiyi ilə bağlı olub. Müşahidəçilər insanların seçim etməsi üçün bütün şəraitin yaradıldığını və seçki prosesinin demokratik, şəffaf şəraitdə keçdiyini vurğulayıblar: "Bu, ümumilikdə bütün beynəlxalq müşahidəçilərin rəyi idi. Onlar tək paytaxt Bakıda deyil, respublikamızın regionlarında da müxtəlif seçki məntəqələrinə baş çəkmişdilər. Müşahidəçilər seçkidən əvvəl keçirilmiş tədbirlərdə də iştirak etmiş, seçki təbliğat vasitələrinin yayılmasını müşahidə etmək imkanı qazanmışdılar. Ümumən, beynəlxalq müşahidəçilərin Azərbaycanda prezident seçkiləri ilə bağlı yekun rəyi yüksək və müsbətdir", - deyə o əlavə edib.

Prezident seçkilərinin ilk dəfə olaraq bütün Azərbaycan ərazisində keçirildiyini xatırladan deputat bildirib ki, Prezident İlham Əliyevin ailə üzvləri ilə birlikdə Xankəndidə səs verməsi də Azərbaycanın ərazi bütövlüyünü təmin etdiyini, suverenliyini tam bərpa etdiyini göstərdi.

Ümumiyyətlə, prezident seçkilərinin yüksək səviyyədə, tam şəffaf və demokratik prinsiplərə uyğun keçirilməsinin səbəbi, əlbəttə ki, Azərbaycanın seçki təcrübəsi və mükəmməl qanunvericilik bazasının mövcudluğudur. Suverenliyimizin bərpası ilə həyatında yeni dövr başlayan Azərbaycan 7 fevral prezident seçkilərini azad, şəffaf, beynəlxalq standartlara uyğun keçirməklə özünün demokratik inkişaf tarixinə yeni parlaq səhifəni yazdı.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 11 fevral, № 30.- S.6.